# Məhəmməd Füzuli Medalı təsis edildi



Azərbaycan Yazıçılar Birliyi katibliyinin 3 saylı qərarı ilə 2025-ci ildən etibarən Məhəmməd Füzuli Medalı təsis edilib. Medalın əsasnaməsində yazıldığı kimi bu medal yalnız əcnəbi şair və yazıçılara "yüksək ədəbi uğurlara görə" təyinatı ilə veriləcək. Nominantlar həm öz ölkəsində, həm də xaricdə təsdiq və təqdir olunan yüksək ədəbi uğurları olan ədiblərin, eləcə də Azərbaycan ədəbiyyatını, Azərbaycan həqiqətlərinin öz ölkəsində və dünyada təbliği, tərcüməsi sahəsindəki fəaliyyətinə görə fərqlənən ədəbiyyat xadimlərinin sırasından seçiləcək.

Medal bürüncdən hazırlanıb, mərkəzində Məhəmməd Füzulinin barelyefi əks olunub. Medal üçün xüsusi hazırlanmış diplom təqdim olunacaq.

Məhəmməd Füzuli medalının təqdimetmə komissiyasının rəhbəri beynəlxalq məsələlər üzrə katib Səlim Babullaoğludur. O, mətbuata açıqlamasında bildirib ki, ötən il dahi şairimiz Məhəmməd Füzulinin anadan olmasının 530 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzuli ili" elan olunmuşdu. İl çərçivəsində həm ölkə səviyyəsində, həm beynəlxalq səviyyədə çoxlu tədbirlər keçirildi. Çoxsaylı kitablar, tədqiqatlar çap edildi, konfrans və simpoziumlar baş tutdu. "Füzuli ili"nin məntiqi sonluğu kimi təsis edilən medal il ərzində 3-dən artıq olmayaraq əcnəbi ədibə veriləcək.

Azərbaycan Yazıçılar Birliyi katibliyinin qərarı ilə bu il Məhəmməd Füzuli medalı 2 nəfərə - böyük qazax şairi, ədibi, mütəfəkkiri Oljas Suleymenova, görkəmli rumın şairi və alimi Mihay Eminesku Akademiyasının prezidenti İon Deakoneskuya veriləcək. Oljas Suleymenovu ədib kimi Azərbaycan ictimaiyyəti yaxşı tanıyır, onu Azərbaycanda elə öz klassiklərimiz qədər sevirlər, eyni zamanda ölkəmizin böyük dostudur. Eləcə də bu il onun məşhur "Az I Ya" əsərinin 50 illiyi qeyd olunacaq.









İon Deakonesku həm öz ölkəsində, həm də Şərqi Avropada tanınmış şair, ədəbiyyatçıdır, ölkəmizin dostudur. Rumıniyada keçirilən bir çox ədəbiyyat tədbirlərində zaman-zaman ölkəmizin və ədiblərimizin təmsil olunmasına şərait yaradıb. Türklərə, Azərbaycana və azərbaycanlılara hörmətlə yanaşır. S.Babullaoğlu bildirib ki, bu ilin may ayında medallar sahiblərinə çatacaq və bu barədə mətbuata məlumat veriləcək.

Yeni Azərbaycan.- 2025.- 26 aprel, №70.- S.8.